

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 78 (21.488)

*29 aprel 2016-cı il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 93-cü ildönümü münasibətilə tədbirlər keçirilib

*Aprelin 28-də Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında görkəmli oftalmoloq-alimin anadan olmasının 93-cü ildönümü münasibətilə tədbir keçirilib.*



Tədbir iştirakçıları əvvəlcə akademik Zərifə xanım Əliyevanın poliklinikanın foyesindəki büstü önünə gül dəstələri qoyub, onun xatirəsinə həsr olunmuş guşədə alimin həyat və fəaliyyətini əks etdirən foto və kitablarla, həmçinin tanınmış insanların görkəmli oftalmoloq-alim haqqında fikirləri ilə tanış olublar.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Sona Məmmədova açaraq qeyd edib ki, Naxçıvan Şəhər Poliklinikası 1990-cı ildən görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım



Əliyevanın adını daşıyır. Ümummilli lider Heydər Əliyev 1990-cı və 1999-cu illərdə poliklinikada olub. 2012-ci ilin mayında ölkə Prezidenti cənab İlham Əliyev Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının yeni binasının açılışında iştirak edib.

Tədbirdə qeyd edilib ki, Azərbaycanın görkəmli oftalmoloq-aliminin anadan olmasının 93-cü ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi aksiyalar keçirib, aztəminatlı ailələrdən olan şagird və tələbələr Almaniya istehsalı olan eynəklərlə təmin ediliblər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının Göz xəstəlikləri şöbəsinin həkim-oftalmoloqu Samiq Sadiqov "Akademik Zərifə xanım Əliyevanın həkimlik fəaliyyəti", Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının şöbə müdiri Heyran Qazıbəyova "Akademik Zərifə xanım Əliyevanın həyatı", Naxçıvan Muxtar Respublika Xəstəxanasının Göz xəstəlikləri şöbəsinin həkim-oftalmoloqu Kəmalə Əliyeva "Akademik Zərifə xanım Əliyevanın elmi fəaliyyəti" və Şərur Rayon Mərkəzi Xəstəxanasının həkim-oftalmoloqu Araz İbrahimov "Akademik Zərifə xanım Əliyevanın pedaqoji fəaliyyəti" mövzularında çıxışlar ediblər.

Çıxışlarda bildirilib ki, Zərifə xanım Əliyeva tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanıb. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərib. Elmi-tədqiqat mövzusu kimi Zərifə xanım Əliyevanın göz xəstəliklərinin müasir müalicə üsullarına müraciət etməsi insanlara və onları əhatə edən mühitə daha çox işıq gətirmək qayəsinin ifadəsidir. Hələ XX əsrin 50-ci illərində Zərifə xanım tərəfindən tibb elmi üçün kəşf edilmiş, elmi cəhətdən əsaslandırılmış müalicə üsulları aradan illər keçməsinə baxmayaraq, indi də tətbiq edilir və insanlara nur bəxş edir.

Vurğulanıb ki, görkəmli alim təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməyib, yüksəkixtisaslı gənc kadrların yetişdirilməsinə və oftalmoloq həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirib. Zərifə xanımın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə qalacaq, onun parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaqdır.

Sonda Naxçıvan Qızlar Liseyinin şagirdləri görkəmli alimə həsr olunmuş şeirləri bədii qiraət ediblər.

***Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 93-cü ildönümü münasibətilə aprelin 28-də Kəngərli rayonunun Şahtaxtı kənd tam orta məktəbində də tədbir keçirilib.***



Tədbir iştirakçıları əvvəlcə Zərifə xanım Əliyevanın məktəbin foyesindəki büstü önünə gül dəstələri qoyub, adını daşıyan muzeyə baxıblar.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov açıb. Bildirib ki, görkəmli alim Zərifə Əliyevanın yüksək mənəvi zənginliyə malik irsi bu gün hər birimiz üçün əhəmiyyətlidir. Məhz Zərifə xanımın böyük zəhməti sayəsində Azərbaycanda oftalmologiya sahəsində mühüm elmi nailiyyətlər qazanılıb. Zərifə xanım Əliyeva ilə bu gün onun doğulub boya-başa çatdığı Şahtaxtı kəndi, təhsil aldığı məktəb, mənsub olduğu xalq qürur hissi keçirir. Görkəmli oftalmoloqun adını daşıdığı Şahtaxtı kənd tam orta məktəbi də öz fəaliyyətini Zərifə xanımın adına layiq qurmağa çalışır.

Tədbirdə məktəbin direktoru Bayram Şirəliyev "Zərifə xanım Əliyevanın həyat və fəaliyyəti", məktəbin müəllimlərindən Azərbaycan Respublikasının Əməkdar müəllimi Həmidə Mirzəyeva "Zərifə Əliyevanın ömür yolu bugünkü şagirdlər üçün əsl nümunədir", Arifə Əhmədova "Gözlərə nur bəxş edən insan" mövzularında məruzələr ediblər. Bildirilib ki, Zərifə xanım Əliyeva 93 il bundan əvvəl görkəmli dövlət xadimi, Azərbaycan səhiyyəsinin qurucusu və təşkilatçısı olan Əziz Əliyevin ailəsində dünyaya göz açıb. Uşaq yaşlarından həkimlik sənətinə hədsiz maraq göstərən Zərifə xanım 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub və 1947-ci ildə oranı müvəffəqiyyətlə bitirərək Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçib. Elmi tədqiqatlara olan hədsiz marağı onu Azərbaycan Oftalmologiya Elmi-Tədqiqat İnstitutuna gətirib çıxarıb. 1950-1953-cü illərdə Zərifə xanım Əliyeva aspiranturada təhsil alıb və elmi tədqiqatla məşğul olub. Taleyini tibb elminə həsr edən görkəmli alim oftalmologiyanın aktual problemlərinə dair çoxsaylı tədqiqatlar aparıb, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edib, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının tapılması istiqamətində səmərəli elmi araşdırmalar aparıb.

Vurğulanıb ki, Zərifə xanım Əliyeva dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və praktik olaraq elm aləmində yeni bir istiqamətin – "peşə oftalmologiyası"nın əsasını qoyub. Bu mənada, oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsi böyük alimin adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları ona böyük şöhrət gətirib. Zərifə xanım elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənib və bu xəstəliklərin profilaktikası üsullarını işləyib hazırlayıb. Onun bu sahədəki ciddi axtarışları dünya tibb elmi ədəbiyyatında nadir tədqiqatlar sırasındadır.

Məktəbin şagirdləri Zərifə xanım Əliyevaya həsr olunmuş şeirləri qiraət ediblər.

Sonda Zərifə Əliyevanın həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

* * *

***XX əsr Azərbaycan tarixinin tanınmış simalarından olan Zərifə xanım Əliyeva gözəl ana, vəfalı ömür-gün yoldaşı, intellektual keyfiyyətləri özündə birləşdirən həqiqi ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq-alim idi. Onun həyatı, elmi və yaradıcılıq fəaliyyəti ilə daha yaxından tanış olduqca, gözlərimiz önündə Ulu Tanrının verdiyi yüksək mənəvi xüsusiyyətləri özündə birləşdirən böyük insan obrazı canlanır.***



Bu fikirlər aprelin 28-də Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının Qadınlar Şurasının akademik Zərifə xanım Əliyevanın anadan olmasının 93-cü ildönümü münasibətilə keçirdiyi elmi-praktik konfransda səsləndirilib.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının akt zalında keçirilən tədbirdə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yazgül Rzayeva "Akademik Zərifə xanım Əliyevanın həyatı və yaradıcılığı" mövzusunda çıxışında ilk qadın oftalmoloqun mənalı ömür yolundan, ictimai-elmi fəaliyyətindən, tibb elminin inkişafındakı müstəsna xidmətlərindən, yüksək insani keyfiyyətlərindən ətraflı söz açıb. Bildirib ki, 1923-cü il aprelin 28-də Naxçıvanda, Şahtaxtı kəndində tanınmış dövlət və ictimai xadim, məşhur həkim və elm fədaisi Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım yalnız görkəmli alim-oftalmoloq deyil, eyni zamanda böyük filosof, gözəl pedaqoq və natiq idi. Oftalmologiyanın müxtəlif problemlərinə həsr etdiyi 140-dan çox elmi əsər, o cümlədən 14 monoqrafiya, dərslik və dərs vəsaiti, 1 ixtira, 12 səmərəli təklifin müəllifi olan görkəmli alimin əsərləri bu gün də göz həkimləri üçün dəyərli mənbədir.

Yazgül Rzayeva deyib ki, Zərifə xanım, sözün həqiqi mənasında, bütün insani keyfiyyətləri özündə birləşdirən əsl insanlıq nümunəsi idi. Haqqında yazılan kitablardan şahid olursan ki, Zərifə xanımı tanıyanların yaddaşında o, yüksək vətəndaşlıq, humanizm mücəssəməsi və saf ürək sahibi kimi əbədi qalıb. İnsanlara məhəbbəti hüdudsuz olan Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin – ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub.

Konfransda Naxçıvan Muxtar Respublika Xəstəxanası Göz xəstəlikləri şöbəsinin həkim-oftalmoloqu Samiq Sadiqovun "Azərbaycan oftalmologiya elminin və təhsilinin böyük hamisi", Naxçıvan Qızlar Liseyinin Azərbaycan dili və ədəbiyyatı müəllimi Rəfiqə Abdullayevanın "Gözəl həkim, qayğıkeş ana" mövzusunda məruzələri dinlənilib.

Məruzələrdə qeyd olunub ki, Zərifə xanım Əliyevanın elmdə məqsədyönlü fəaliyyəti heyranlıq doğururdu. 1950-ci illərdə respublikamızda traxoma, qlaukoma və sair kimi xəstəliklərə qarşı effektiv müalicə üsullarının müəyyənləşdirilərək tətbiq edilməsində mühüm rol oynayan Zərifə xanımın elmi fəaliyyətinin əsas istiqaməti görmə orqanının peşə patologiyası təşkil edirdi. Onun elmi tədqiqatları göz damarlarının anormallığı, gözün hidrodinamik sistemi məsələlərini də əhatə edib.

Vurğulanıb ki, Azərbaycanın yetişdirib dünya tibb elminə bəxş etdiyi görkəmli alim və istedadlı həkim Zərifə xanım Əliyevanın xatirəsi xalqımız tərəfindən daim yaşadılır. Onun adına ölkəmizdə və muxtar respublikamızda çoxsaylı prospektlər, təhsil müəssisələri və xəstəxanalar vardır.

**Xəbərlər şöbəsi**

# Naxçıvanda heyrətamiz inkişafın şahidi oldum

*Xəbər verdiyimiz kimi, Beynəlxalq Miqrasiya Təşkilatının Beynəlxalq Əməkdaşlıq və Tərəfdaşlıq İdarəsinin direktoru xanım Jill Helken aprelin 27-də Naxçıvan Muxtar Respublikasında birgünlük səfərdə olub. Səfər müddətində Naxçıvanın bir çox gəzməli-görməli yerləri ilə tanış olan qonaq səfər təəssüratları barədə "Şərq qapısı" qəzetinə müsahibə verib.*



***– Xanım Jill Helken, sizi yenidən Naxçıvanda görmək xoşdur.***

– Çox sağ olun, mən də yenidən Naxçıvanda olmaqdan, buradakı tanışlarla görüşməkdən çox məmnunam. Bu, mənim muxtar respublikaya ikinci səfərimdir. İlk dəfə burada 15 il bundan əvvəl olmuşam. O zaman əməkdaşlığımız yeni başlayırdı. Budəfəki səfərdə isə məqsədimiz mövcud əməkdaşlığın davam etdirilməsi ilə bağlı müzakirə aparmaq və Naxçıvanla yenidən tanış olmaq idi.

***– Yəqin ki, tanış ola bildiniz?***

– Əlbəttə, qeyd edim ki, ötən illər ərzində Naxçıvan tamamilə dəyişib, burada heyrətamiz inkişafın olduğunu gördüm. Bunu sözlə ifadə etmək çətindir. Naxçıvanın tarixi abidələri, muzeyləri, təbii müalicə ocaqları bizdə xoş təəssürat yaratdı. Bu tarixi abidələrə dövlətiniz tərəfindən necə həssas münasibət bəslənildiyinin şahidi olduq. Bir sözlə desək – mükəmməl və heyranedici. Eyni zamanda burada öz işini bilən savadlı, bacarıqlı kadrlar var. Naxçıvanda olarkən bir çox rəsmi qurumların rəhbərləri ilə görüşdük, müzakirələr apardıq, eyni zamanda "Readmissiya və insan hüquqları" mövzusunda keçirilən seminarda iştirak etdik. Bütün bunlar çox maraqlı və faydalı oldu. Düşünürəm ki, muxtar respublika ilə bağlı gələcək planlarımız yenə də yüksələn xətt üzrə inkişaf edəcək.

***– O zaman güman edirik ki, Naxçıvana səfərləriniz də intensiv xarakter daşıyacaq.***

– Təbii ki, Naxçıvana gəlməyi hər zaman arzulamışam. Ancaq bildiyiniz kimi, təşkilatımız tərəfindən dünyanın bir çox ölkələrində layihələr həyata keçiririk, tez-tez müxtəlif regionlarda səfərdə oluruq, yəni vaxt məhdudiyyəti burada özünü göstərir. Lakin ümid edirəm ki, Naxçıvana növbəti səfərim daha 15 il sonra olmayacaq.

***– Müsahibə üçün sağ olun.***

✍ Səbuhi HƏSƏNOV

*Naxçıvan Muxtar Respublikasının inkişafını xarakterizə edən əsas xüsusiyyətlərdən biri formalaşdırılmış möhkəm iqtisadi əsaslar fonunda əhalinin maddi rifah halının davamlı olaraq yüksəldilməsi, muxtar respublika sakinlərinin etibarlı sosial müdafiəsinin təşkilidir.*

# Naxçıvan şəhərində növbəti əmək yarmarkası keçirilib



Qloballaşma prosesinin geniş vüsət aldığı bir dövrdə iqtisadiyyatda yaşanan yüksəlişin vətəndaşların həyatında da öz əksini tapması sosialyönümlü iqtisadi siyasətin yüksək səmərəliliyini və praktik nəticələrinin effektivliyini aydın şəkildə nümayiş etdirir. Dövlətin iqtisadi əsaslarının davamlı olaraq möhkəmlənməsi şəraitində sosial-iqtisadi problemlərin həlli, yoxsulluğun azaldılması, işgüzar fəallığın yüksəldilməsi, habelə məşğulluq tədbirlərinin həyata keçirilməsi istiqamətində muxtar respublikada son illər ərzində uğurlu addımlar atılıb. İşaxtaran vətəndaşların müvafiq iş yerləri ilə təmin olunması məqsədilə vaxtaşırı olaraq təşkil olunan əmək yarmarkaları isə vətəndaşların böyük əksəriyyətinin daimi işlə təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Növbəti belə əmək yarmarkası dünən Naxçıvan şəhərində keçirilib.

Boş iş yeri təqdim edən müəssisələrin nümayəndələrinin də iştirak etdiyi əmək yarmarkası həmişəki kimi Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində təşkil olunmuşdu. Boş iş yerləri ilə tanışlıqdan əvvəl şəhər Məşğulluq Mərkəzinin direktoru Əli Məmmədov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov çıxış edərək əhalinin məşğulluğunun təmin olunması istiqamətində görülən işlərdən danışdılar, işaxtaran vətəndaşların işlə təmin edilməsində əmək yarmarkalarının əhəmiyyətindən bəhs etdilər. Sonra yarmarkaya gələnlər müxtəlif idarə, təşkilat və sahibkarlıq subyektlərindən təqdim edilən boş iş yerləri ilə tanış oldular.

Naxçıvan şəhərində təşkil edilən əmək yarmarkasına 51 təşkilatdan 517 boş iş yeri çıxarılmışdı. Yarmarkada 21 nəfərə işə göndəriş verilib.

Xəbərlər şöbəsi

# Ümumdünya Əməyin Mühafizəsi Günü qeyd olunub



*Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında 28 aprel – Ümumdünya Əməyin Mühafizəsi Günü ilə əlaqədar tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə şuranın sədri Sucaxan Novruzov açaraq bildirib ki, bu gün Azərbaycanda davam etdirilən hüquqi-dünyəvi dövlət quruculuğu vətəndaşların hüquq və mənafelərinin ən yüksək səviyyədə təminatına xidmət edir. İnsanların hüquqlarının qorunması, əməyinin mühafizəsi, sağlam və təhlükəsiz iş şəraitinin təşkili dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Muxtar respublikamızda da işçilərin hüquqlarının qorunması və əməyinin mühafizəsi daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir. 8 iyun 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində istehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlər haqqında və 21 fevral 2012-ci ildə tikinti sektorunda əməyin təşkili, təhlükəsizlik qaydalarına əməl olunması və muxtar respublikada yanacaq ehtiyatlarının yaradılması ilə əlaqədar keçirilən müşavirələr mühüm əhəmiyyətə malikdir. Əməyin mühafizəsi və yerlərdə təhlükəsizlik qaydalarına əməl olunması Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının əsas vəzifələrindən biri olduğundan şura 50-dən yuxarı tikinti, elektroenergetika, emal sənayesi və digər təşkilatlarda maarifləndirici tədbirlər həyata keçirib, əməyin mühafizə edilməsi qaydalarına əməl olunmasına nəzarəti gücləndirib.

Şuranın əməkdaşlarından Xatirə İbrahimli, Ceyhun Məmmədov, Hüseyn Quliyev, Ümbülbəni Musayeva, Mərdan Qurbanov, Eyvaz Əsgərov və başqaları çıxış edərək bildiriblər ki, muxtar respublikamızda əməyin mühafizəsi sahəsində həyata keçirilən tədbirlər insan amilinə göstərilən diqqət və qayğının özündə ehtiva edir. Muxtar respublikamızda təhlükəsiz əmək şəraitinin təmin olunması prosesində dövlət qurumlarının, işçilərin və işəgötürənlərin iştirak etməsi təqdirolunası amillərdir.

*Yeraltı və yerüstü sərvətlərlə zəngin olan muxtar respublikamızın təbii resurslarından səmərəli istifadə olunması istiqamətində həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini vermiş, daxili bazarın tələbatı ödənilməklə yanaşı, ixracyönümlü məhsullar istehsal edən yeni emal və sənaye müəssisələri həyata vəsiqə almışdır. Belə müəssisələrdən biri də muxtar respublikamızda aparılan quruculuq tədbirlərində yaxından iştirak edən "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətidir.*

*İstehsal müəssisələri*

# Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksinin ixrac imkanları genişlənir





Cəmiyyətin Naxçıvan şəhərində, Babək rayonunun Araz və Kəngərli rayonunun Qarabağlar kəndlərində istehsal müəssisələri, Kəngərli rayonunun Qarabağlar və Çalxanqala kəndlərinin ərazilərində daş karxanaları fəaliyyət göstərir. Daş karxanalarının yerləşdiyi dağlıq əraziyə avtomobil yolu, elektrik və su xətləri çəkilmiş, iaşə xidməti üçün əlverişli şərait yaradılmışdır. Daş karxanalarında əvvəlcə kəşfiyyat xarakterli qazıntı işləri aparılır və daş kəsilərək nümunə götürülüb keyfiyyəti yoxlanılır. Sonra isə blok şəklində kəsilən daşlar ağırtonnajlı maşınlarla Şahtaxtı stansiyasına daşınıb yük vaqonları ilə istehsal müəssisələrinə göndərilir. Kiçik daş parçaları isə Qarabağlar daş karxanasının yaxınlığındakı istehsal müəssisəsinə daşınıb müxtəlif çeşiddə tikinti materialları istehsal edilir. Təbii resurslardan səmərəli istifadə olunması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmiş, ötən il aparılan kəşfiyyat xarakterli qazıntılar zamanı Babək rayonunun Çeşməbasar kəndi ərazisində yeni çeşiddə – sienit (ağ-qara çilli daşlar) daş yatağı aşkar olunmuş, ərazidə müasir texnoloji avadanlıqlarla təmin edilmiş daş karxanası istifadəyə verilmişdir.

Babək rayonunun Araz kəndi yaxınlığında yerləşən istehsal müəssisəsi son illər muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində yerli tikinti materiallarına olan tələbatın ödənilməsi zərurətindən yaradılmışdır. İstehsal sahəsi üçün zəruri avadanlıqların alınması və tikinti-quraşdırma işlərinin aparılması məqsədilə Sahibkarlığa Kömək Fondundan dövlət maliyyə dəstəyi göstərilmişdir. İtaliya və Türkiyədən alınmış müasir texnoloji avadanlıqların quraşdırıldığı və 5000 kvadratmetr tikili ərazisi olan istehsal müəssisəsi 2005-ci ildə fəaliyyətə başlamışdır. Gündəlik istehsal gücü 1000 kvadratmetr olan müəssisədə yüksəkkeyfiyyətli travertin istehsal edilir.

Diyarımızın təbii sərvətlərindən daha səmərəli istifadə etmək üçün 2010-cu ilin oktyabr ayında Naxçıvan şəhərində travertin və mərmər emalı üzrə ixtisaslaşmış yeni istehsal müəssisəsi istifadəyə verilmişdir. Qarabağlar və Çalxanqala kəndləri ərazilərindəki zəngin yataqlardan çıxarılan travertin və mərmər daşlar emal üçün bu müəssisəyə gətirilir. Məhsul buraxılışında istifadə edilən daşlar təbii olaraq antibakterial keyfiyyətə malikdir. Müəssisədə Türkiyə istehsalı olan "Sesemak" markalı avadanlıqlar quraşdırılmışdır. Böyük və kiçikölçülü travertin plitələrdən, əsasən, binaların fasadının və həyətyanı sahələrin bəzədilməsində, mozaik travertinlərdən isə müxtəlif naxışlı bəzək üzlüklərinin hazırlanmasında istifadə olunur. Gündəlik maksimum istehsal gücü 2000 kvadratmetr olan müəssisədə klassik ağ və qara suyollu travertin məhsulları ilə yanaşı, Naxçıvan sədəfi və qara inci mərmər, sienit də istehsal edilir. Həmçinin müəssisədə dekorasiya sexi də fəaliyyət göstərir. Burada kompüterlə idarə olunan müasir texnoloji avadanlıqlar quraşdırılmışdır. Müəssisəyə verilən hər hansı bir sifarişə uyğun travertinin üzərində oyma üsulla naxışlar salınır.

Müasir texnoloji avadanlıqlarla təmin edilmiş daş karxanaları və müəssisələrdə istehsal prosesi avtomatlaşdırılmışdır. Yeni texnoloji avadanlıqlar məhsulun keyfiyyətlə istehsal olunmasında mühüm rol oynayır. Onu da qeyd edək ki, sovetlər dönəmində partlayış üsulu ilə yataqlardan qoparılan sal daşlar xammal şəklində vaqonlara yüklənib ittifaqın ayrı-ayrı şəhərlərinə daşınıb istehsal olunurdusa, indi müasir texnoloji avadanlıqlardan istifadə etməklə kəsilən sal daşlar blok şəklində Naxçıvan şəhərində və Araz kəndində fəaliyyət göstərən istehsal müəssisələrinə göndərilir. Daş yataqlarından qopan kiçik parçalar isə Qarabağlar daş karxanasının yaxınlığında fəaliyyət göstərən müəssisədə istehsal olunur.

Yüksəkkeyfiyyətli məhsul istehsalı üçün müasir texnoloji avadanlıqlarla yanaşı, ixtisaslı mütəxəssislərin cəlb olunması da diqqət mərkəzində saxlanılmışdır. Kollektiv mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərir, istehsal zamanı texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur.

Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksində istehsal olunan yüksəkkeyfiyyətli məhsulların xarici bazarlara çıxarılması da mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılmışdır. Bu məqsədlə Bakı şəhərində və xarici ölkələrdə keçirilən biznes forumlarda müəssisə nümayəndəsinin iştirakı və beynəlxalq sərgilərdə istehsal olunan məhsulların nümayişi təmin edilmiş, nəticədə, məhsullar xarici şirkətlərin marağına səbəb olmuşdur. Cari ildə də bu istiqamətdə işlər uğurla davam etdirilmiş, mart ayının 23-dən 26-dək Türkiyənin İzmir şəhərində keçirilən, ayrı-ayrı ölkələrdən gəlmiş, ümumilikdə, 1700-dən çox şirkətin iştirak etdiyi 22-ci beynəlxalq təbii daş və texnologiyalar sərgisində Naxçıvanda istehsal edilən daş məhsulları da nümayiş olunmuş, bu sahə üzrə qabaqcıl təcrübəyə malik şirkətlərlə təcrübə mübadiləsi aparılmış, biznes əlaqələri qurulmuşdur. Bu da təbii ki, istehsal edilən yerli daş məhsullarının həm tanıdılmasına, həm də xarici bazara çıxarılmasına geniş imkanlar açmışdır. Həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini vermiş, "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal olunan məhsullar sifarişə uyğun olaraq Gürcüstan Respublikasına göndərilmişdir. Gələcəkdə digər xarici ölkələrə də məhsulların ixrac olunması planlaşdırılır.

"Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" MMC-də yerli xammaldan səmərəli istifadə olunmaqla istehsal edilən tikinti materialları ölkəmizdə, o cümlədən muxtar respublikamızda aparılan quruculuq tədbirlərinin daha geniş vüsət almasına stimul verir, müasir memarlıq üslubu ilə neçə-neçə binaları bəzəyir. Müəssisənin istehsal etdiyi məhsullara olan tələbatı ödəmək, sifarişləri vaxtında və keyfiyyətlə yerinə yetirmək üçün 420 nəfərdən ibarət kollektiv mövcud imkanlardan səmərəli istifadə etməyə çalışır, istehsal edilən məhsul sifarişçi şirkətlərin ünvanlarına vaxtında çatdırılır.

✍ Kərəm HƏSƏNOV

# Qədim Naxçıvanın kəşfi



Beş aydır ki, mən Azərbaycanın paytaxtı Bakı şəhərində yaşayıram. İndi yaz fəsli ilə əlaqədar olaraq havalar mülayimləşib və mən bu gözəl və valehedici ölkəni kəşf etməyə başlamışam.

İlk gəzintimi Azərbaycan Respublikasından ayrı düşmüş Naxçıvan Muxtar Respublikasına səfərlə başladım. Bu ərazi şimal-şərqdən Ermənistan, cənub-qərbdən İran, şimal-qərbdən isə Türkiyə ilə həmsərhəddir.

Naxçıvana səfər etməyin ən yaxşı yolu təyyarədir. Azərbaycan Hava Yolları paytaxt Bakıdan Naxçıvan Muxtar Respublikasına gündə 4, yaxud 6 təyyarə reysi həyata keçirir. Naxçıvanın çoxlu tarixi-mədəni abidələri vardır. Belə ki, XII əsrdə tikilmiş Möminə xatın türbəsi Naxçıvanın orta əsr tarixinin memarlıq ənənələrini özündə əks etdirir.



Bu abidənin arxa tərəfində siz 1747-ci ildə tikilmiş Xan Sarayını görə bilərsiniz. Bu gün bu muzeyin səkkiz otağında 900 ədəd eksponat nümayiş olunur.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi isə arxeoloji materiallar, xüsusən saxsıdan hazırlanmış qablar və daş alətlərlə zəngindir. Bu gün bu abidə tarix və memarlıq muzey kompleksi kimi fəaliyyət göstərir.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində yeraltı şaxta vardır ki, oradan sığınacaq kimi istifadə olunmuşdur. Bu şaxtanın üst hissəsində havalandırma və işıqlandırma üçün baca, içəri hissəsində isə quyu vardır. Qala tamamilə dağıdılmışdır. Lakin divar qalıqları unikal görünüşünə görə diqqəti cəlb edir.



Əlincə qalası Culfa şəhərinin yaxınlığında dağın üst hissəsində yerləşən və qeyri-adi görünüşə malik tarixi abidədir. Qədim tarixi olan bu qalada bərpa işləri aparılmışdır. Qalanın daxilində və dağın aşağı yamaclarında bulaq və su hovuzları vardır.



Biz Naxçıvan şəhərindən 10 kilometr məsafədə yerləşən "Duzdağ" mehmanxanasında qalırdıq. Bu mehmanxanada türk hamamı, sauna, tennis kortu, gimnastika, oyun zalı və hovuzlar vardır. Həmçinin mehmanxanadan avtomobillə 5 dəqiqəlik məsafədə Duzdağ Fizioterapiya Mərkəzi fəaliyyət göstərir. Buradakı duz mağarasında tənəffüs yolları xəstəliyi olan insanlar müalicə olunur.



Biz həmçinin Naxçıvanda olan uca dağlara səfər etdik və dağların ətəklərində qarı görməkdən zövq aldıq. Naxçıvanda ən yüksək zirvə Qapıcıq dağıdır.



Mənim burada diqqətimi çəkən digər məqam isə üzərində iki zəngi olan qədim qapılardır. Qapıların sağ tərəfində olan zəng kişi, sol tərəfində olan zəng isə qadınlara aiddir. Əgər qapını kişi döyürsə kişi, qadın döyürsə qadın açır.



Səfərimizin sonunda biz Əshabi-Kəhf ziyarətgahına getdik. Bu ziyarətgah Naxçıvan şəhərindən 12 kilometr məsafədə Nəhəcir dağının yaxınlığında yerləşən təbii mağaradır. Ərəb dilində bu yerin tərcüməsi "mağara sakinləri" mənasını ifadə edir. Azərbaycanın digər regionları və xarici ölkələrdən bura zəvvarlar, turistlər və qonaqlar müntəzəm olaraq səfər edirlər.



**Montse Baughan**
***İspaniya,***
***www.montsebaughan.com***
***internet saytı***

## Sirli Naxçıvan

***Bura Naxçıvandır – qədim və sirli diyar; özü bir möcüzə, təbiəti bir möcüzə... Ədəbiyyatın, mədəniyyətin ilk addımlarına çıraq tutan, əsrlərin tufan sınağından keçib gələcəyə alınmaçıq, üzüağ çıxan məkan. Gəmiqaya, Əshabi-Kəhf, Möminə xatın, Duzdağ və sair kimi daha neçə sirli abidənin yerləşdiyi torpaq. Hər daşı, hər qarışı əfsanələşmiş diyar. Bu abidələr içərisində Gəlinqayalar da var.***

# Təbiətin möcüzəsi — Gəlinqayalar



Türk dünyasının bir çox ərazilərində mövcud olan Gəlinqayalara zəngin təbiəti və ekzotik təbiət abidələri ilə diqqətçəkən Naxçıvanda da rast gəlirik. Naxçıvandakı Gəlinqayalara yol almamışdan əvvəl Gəlinqayalar haqqında "Naxçıvan Ensiklopediyası"nda oxuduqlarımızı diqqətinizə çatdırırıq: Şahbuz rayonunun ərazisində yerləşən Gəlinqaya öz maraqlı görünüşü ilə göz oxşayır. Zəngəzur silsiləsinin cənub yamacında, Zərnətün çayının mənbə hissəsindədir. Hündürlüyü 2876 metrdir. Andezit-dasit tərkibli subvulkanik çıxıntıdır. Bu Gəlinqaya ilə bağlı yaranan əfsanələrin tarixi eradan əvvəl 3-2-ci minilliyə aiddir və xalq arasındakı rəvayətə görə, özünü düşmənlərdən qorumağa çalışan bir qadının daşlaşmış heykəlidir Gəlinqaya. Abidə Azərbaycan xalqının daşadönmə ilə bağlı inanclarını əks etdirir.

Digər bir Gəlinqaya isə Şərur rayonunun Havuş kəndinin şimalında, Tamaşalı yaşayış yerinin yaxınlığında yerləşir. Hündürlüyü 2769 metrdir. Günbəzvarı maraqlı formaya malikdir. Abidəni 7-8-ci əsrlərə aid edirlər.

Ordubad rayonunun Unus və Pəzməri kəndləri arasında yerləşən Gəlinqaya isə insan fiquruna bənzəyir. Tarixən dağları, qayaları əfsanələşdirən xalqımız bu Gəlinqayanı da əfsanələşdirib.

***Mütəxəssis fikri – mifoloji və etnoqrafik məlumatlar...***

Gəlinqayalarla bağlı AMEA-nın müxbir üzvü, etnoqraf Hacı Qadir Qədirzadə ilə söhbətləşdim.

– Dönərgələr folklorumuzun maraqlı səhifələrini əhatə edir, – deyən alim qeyd etdi ki, bu əfsanələrdə qadın ləyaqəti, qadın isməti xüsusi yer tutur. Həm folklorumuzu öyrənmək, həm də mənəviyyat baxımından əhəmiyyətli olan gəlin-qaya, qız-daş, qız-gəlin və sair bu kimi təbiət abidələrinin mərkəzində qədim türklərə məxsus daş kultu dayanır. Əfsanələrdə də qeyd edildiyi kimi, çıxılmaz vəziyyətdə qalan insanlar "Tanrım, məni daş elə, ya da quş elə", – deyirlər. Hacı Qadir Qədirzadə onu da deyir ki, biz təbiət abidələrinə elə bir gözlə baxmalıyıq ki, onun ruhunu görə bilək. Bu abidələrin əhəmiyyətini bundan sonra daha yaxşı dərk edə bilərik.

***Gəlinqaya əfsanələri…***

Naxçıvanda geniş yayılmış əfsanələri saymaqla bitmir. Bu isə folklorun zənginliyinə dəlalət edir. Ulu əcdadlarımızın düşüncə tərzinin ən gerçək ifadəsi folklorda əfsanə janrının payına düşür. Naxçıvan regionundan toplanmış əfsanələrdə rast gəldiyimiz əsas motivlərdən biri daşadönmə ilə bağlıdır. Daşadönmə insanların əski mifoloji dünyagörüşünün ifadəsidir. Əfsanələrin daşadönmə motivindəki maraqlı tərəflərdən biri insanların xilas üçün yön aldıqları tərəfin dağlar olmasıdır. Dağa pənah aparmaq, dağa sığınmaq və sair kimi hadisələr isə əski dağ kultunun izləridir.

Bu haqda "Naxçıvan əfsanələri" kitabında folklorşünas, filologiya üzrə fəlsəfə doktoru, dosent Məhsəti İsmayıl yazır: "Məsum varlıqların – əsasən, qızların, gəlinlərin, sevgililərin zülmdən qurtuluş yolu dağa üz tutması və daşa çevrilməsidir. Hazırda Şahbuz rayonunda "Gəlindaş" deyilən bir yer var. Buranı ziyarət edən və onu saflıq mücəssəməsi kimi görən insanlar bu əxlaq kodeksini özünə də aşılamışdır".

Şahbuzda yayılmış əfsanələrin birinə nəzər salaq. Qədim zamanlarda Şahbuzun çox ucqar kəndlərindən birində gözəlliyi aləmə yayılan sərvboylu bir gəlin varmış. Əri düşmənlə vuruşmada həlak olubmuş. Gəlinin qumral gözləri, ilan kimi qıvrılan qoşa hörüyü cavanların canına od salarmış. Yaxından, uzaqdan gələn elçilər həmişə kor-peşman geri qayıdarmışlar. Günlərin bir günü gəlini tanımadığı bir oğlan qaçırır. Oğlan qorxusundan gəlini dağlara aparır. Onlar başı göylərə dəyən Toğlu qaya ilə Salvartı dağının arasından keçəndə gəlin çırpınıb oğlanın əlindən çıxmaq istəyir, ancaq bacarmır. Əlacsız qalan gəlin uca qaya başında üzünü göylərə tutub aman istəyir. Daşa dönmüş gəlinin abidəsi o vaxtdan el arasında "Gəlin qayası" adıyla tanınır...

Gəlin qayası ilə bağlı digər əfsanəni Şahbuz rayonunun Mahmudoba kənd sakini, 73 yaşlı Göycə Quliyeva söyləyib:

– İki gənc bir-birlərini Leyli-Məcnun kimi sevirmişlər. Onların yaşadığı obada bir zalım varlı varmış. Çalışır ki, oğlanın nişanlısını onun əlindən alsın. Bunu eşidən nişanlılar uzaq bir dağda, qayanın altında yurd-yuva salıb orda yaşamağa qərar verir, maldarlıqla məşğul olurlar. Varlı adam eşidir ki, cavanlar köçüblər. Tez oraya adamlarını göndərir, gedib qıza desinlər ki, filan bəy səni istəyir, gəl aparaq. Nə qədər var desən, pul desən onda. Qız kasıb da olsa, oğlana çox məhəbbətliydi. Odur ki, varlının ismarıcını rədd edir. Bir gün gəlin baxır ki, bəyin adamları yenə gəlirlər. Fikirləşir ki, onu zorla aparacaqlar, əri də burada deyil. Qalxır həmin uca qayaya, deyir ki, özümü atıb ölərəm, yad əllərə düşmərəm. Elə o vaxtdan da bu qaya "Gəlin qayası" adlanır.

Digər əfsanədə isə deyilir: ermənilər müharibə eliyib Ərəfsə kəndinin sakinlərini qırıb bəzilərini əsir götürürlər. Əllərindən bir neçə qadın qaçıb qurtarır. Bir gəlin qayaya çıxıb özünü dağdan atır. O vaxtdan dağın adı qalıb "Gəlin qayası".

Naxçıvan əfsanələrində yayılan daşadönmə, daş motivi Azərbaycan nağıllarında, dastanlarında, inanclarda da geniş şəkildə əks olunmuşdur.

Sivilizasiyaların təməlində folklor durur. Çünki folklor xalqın taleyidir: hər bir etnosun taleyi onun milli yaddaşa olan hörməti, onu mühafizə edib, gələcək nəsillərə ötürmə bacarığı ilə ölçülür. Bu səbəbdən hər bir şəxs öz folklorunu qorumalıdır, ona sahib çıxmalıdır. Bu isə millətin gələcəyi üçün son dərəcə vacibi məsələdir.

**✍ Nərgiz İSMAYILOVA**

# V-IX sinif şagirdləri arasında mantu sınağı başa çatıb

***Muxtar respublikamızın vərəmə həssas bəzi yaşayış məntəqələrinin tam orta məktəblərində təhsil alan V- IX sinif şagirdləri arasında erkən vərəmin aşkar olunması məqsədilə tuberkulin diaqnostikası sınağının aparılması başa çatıb. Bunun üçün əvvəlcədən zəruri təşkilati tədbirlər həyata keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri tərəfindən əvvəllər vərəmli xəstələrin qeydə alındığı yaşayış məntəqələrinin tam orta məktəbləri müəyyənləşdirilib. Həmin məktəblərdə aşkarlanmış ilkin vərəm intoksikasiyalı uşaqları vaxtında müayinə və müalicəyə cəlb etmək üçün rayon mərkəzi xəstəxanaları, eləcə də gigiyena və epidemiologiya mərkəzləri tərəfindən xidmət ərazilərində mantu sınağına cəlb ediləcək uşaqların siyahıları tərtib olunub. Ərazi prinsipi üzrə bir həkim və iki tibb işçisindən ibarət yaradılmış xüsusi briqadalar sınaq materialı ilə təchiz edilib.

Bu il aprelin 4-dən start verilən mantu sınaqları ərazi prinsipi üzrə aparılıb. Rayon mərkəzi xəstəxanaları, kənd səhiyyə müəssisələri, məktəb tibb məntəqələrinin həkim və tibb işçiləri tuberkulin diaqnostikasında bu zəruri mərhələni nəzərdə tutulan vaxtda başa vurublar. Muxtar respublika üzrə 7031 nəfər V-IX sinif şagirdinin 82 faizi sınağa cəlb edilib. 5430 mənfi, 643 şübhəli, 328 müsbət, 17 hiperergik reaksiya aşkar edilib.

Sınağın nəticələri 72 saat keçdikdən sonra qiymətləndirilib və bu haqda Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə, Ağciyər Xəstəlikləri Dispanserinə məlumat verilib. Nəticələr qiymətləndirilərkən müsbət və hiperergik reaksiyalı uşaqların dərin ftiziatr müayinəsinə cəlb olunmaları üçün zəruri tədbirlər görülüb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Fədakar müəllim, vətənpərvər ziyalı
## (Oçerk)



***Pəncərədən bayıra baxanda gördü ki, axşamdan yağmağa başlayan çiskin yağış hələ kəsməyib. Elə o anda da düşündü ki, burada təəccüblü nə var ki? Yaz yağışı belə olar, ruzi-bərəkətdir indiki yağış.***

Məktəbə bu gün bir qədər tez getmək, təmiz yağış havasından udmaq istədi. Çayını içib, evdən çıxdı. Doğulub boya-başa çatdığı Milax kəndinin əsrarəngiz gözəlliyini seyr edə-edə məktəbə tərəf getməyə başladı. Məktəbin 15-20 il əvvəlki görkəmini yadına salmaq istədi. Sifəti bir anlığa tutuldu, sonra bu ifadəni təbəssüm əvəz etdi. Yadına düşdü ki, təkcə məktəb binası yenilənməyib, bütövlükdə kənd yeniliyə qovuşub: yeni tikililər, geniş asfalt yol, ilbəil artırılan yaşıllıqlar. Bütün bunlar insanların da həyata baxışlarını dəyişdirib. Ucqar dağ kəndinin bugünkü siması Nəbi müəllimin ovqatına elə bil yeni çalarlar gətirdi. Dəfələrlə bu hissləri yaşamışdı. Yaşadıqca da sanki cavanlaşırdı.

Məktəbə doğru irəlilədikcə düşüncələrinə hakim kəsilən məqamlar getdikcə çoxalırdı.

Budur, məktəb binasının həyətinə çatıb. Hələ bir o qədər qələbəlik deyil. Beş-on dəqiqə sonra şaqraq uşaq səsləri məktəb həyətinə bir sevinc bəxş edəcək. Uşaq vaxtı biz görə bilmədiyimiz günlərdir, şükür Allaha, bu gün uşaqlarımız görürlər. Bu fikirlərlə məktəbin binasına daxil oldu. Hər şey yerli-yerində idi. Sonra sinifləri gəzdi, otaqlar dərs məşğələlərinə hazır idi.

* * *

Müəllimlər ikibir, üçbir müəllimlər otağına daxil olur, bir-birlərilə hal-əhval tutur, ilin ruzili, bərəkətli olacağından söhbət edirdilər.

–Test-sınaq imtahanlarına hazırlıq necədir? – deyə Nəbi müəllim müəllimlərə ümumi şəkildə sual verdi. Aldığı cavabdan çöhrəsinə təbəssüm qondu. Əslində, cavabın belə olacağını bilirdi. Çünki müəllimlərin imtahanlara ciddi hazırlığını kənardan müşahidə etmişdi. Bu da onda əminlik yaratmışdı ki, çəkilən zəhmət hədər getməyəcək, növbəti test-sınaq imtahanlarının da nəticələri ürəkaçan olacaq.

Bir qədər sonra zəng çalındı, uşaqlar siniflərə keçdilər. Məktəb sakitliyə qərq oldu. Nəbi müəllim, adəti üzrə, otaqdan çıxıb zalda gəzişməyə başladı. Siniflərdən dərsə cavab verən şagirdlərin, ara-sıra müəllimlərin səsi gəlirdi.

Yenə xəyallar onu keçmişə apardı: uyğunlaşdırılmış məktəb binası, darısqal sinif otaqları, sınıq-salxaq partalar, müəllim və şagirdlərin hazırladıqları primitiv tədris ləvazimatları. İndi durub o illəri xatırlayanda inana bilmirsən ki, elə bir dövrü yaşamışıq. Uşaqlar isə heç inanmazlar buna. Yadına ali məktəbdə ona triqonometriya fənnindən dərs deyən Hüseyn müəllimin sözləri düşdü: insan dünənini unutmamalıdır. Haradan gəlib, haraya getdiyini yaxşı bilməlidir. İnsan ömrü bir yoldur, kitab səhifələridir.

Nəbi müəllimin səhifələrə dönmüş ömür yolu gözləri önünə gəldi.

* * *

Birinci sinfə gedəndə 1963-cü il idi. Bayaq xatırladığı Milax kənd 8 illik məktəbi əla qiymətlərlə başa vurmuşdu. 1973-cü ildə orta məktəbi qonşu Bənəniyar kəndində bitirib. 1973-1977-ci illərdə indiki Naxçıvan Dövlət Universitetində təhsil alıb. Bir neçə il rayonun Gal və Ərəfsə kəndlərində riyaziyyat müəllimi işləyib. 1980-ci ildən pedaqoji fəaliyyətini doğma kəndində davam etdirməyə başlayıb.

1999-cu ildə işgüzarlığını, tələbkarlığını, təşkilatçılıq qabiliyyətini nəzərə alaraq onu məktəbə direktor təyin ediblər. O vaxt Milax məktəbi rayonun geridə qalmış təhsil ocaqlarından biri idi. Fəaliyyətə başladığı ilk günlərdən təhsilin səviyyəsini yüksəltmək üçün yollar axtarıb. Qabaqcıl məktəb direktorlarının təcrübəsindən yararlanmağa səy göstərib. Məktəbə direktor təyin olunandan sonra keçirdiyi ilk pedaqoji şurada dediklərini xatırladı:

– Dərs dediyi şagirdin imtahanda "2" almasına müəllim necə baxır? "2" almaq o demək deyil ki, uşağın həmin fəndən heç xəbəri yoxdur? Bəs ona 5-6 il dərs deyən müəllim nə fikirləşir onda? Deməli, müəllimin 45 dəqiqəlik fəaliyyəti sıfırla ölçülməlidir. Hər bir müəllim şagirdin müstəqil işləməsinə şərait yaratmalı, istiqamət verməlidir. Elə düşünmək də düzgün olmaz ki, şagirdin hazır bilikləri öyrənib müəllimə verdiyi cavab onun müstəqil nəticə çıxarmağıdır. Şagirddə, ilk növbədə, axtarışlar aparmağı formalaşdırmaq lazımdır. Bunun da unutmaq olmaz ki, şagirdlərin hamısının qavrama qabiliyyəti eyni deyil. Müəllim fərdi yanaşma prinsipinə əməl etməli, həm dərsdə, həm də dərsdənkənar məşğələlərdə öz işini məhz bu istiqamətdə qurmağa çalışmalıdır.

Bu işdə o, özü nümunə olmağa çalışıb. Məktəbdənkənar nizam-intizama, məktəbdaxili və sinifdənxaric məşğələlərin vaxtlıvaxtında keçirilməsinə, həmin məşğələlərin dərslərlə əlaqəli qurulmasına diqqəti artırıb. Zəif oxuyan şagirdlər əlavə məşğələlərə cəlb olunub. Valideynlərlə əlaqələr gücləndirilib. Kollektiv qarşısında bir vəzifənin qısa müddətdə yerinə yetirilməsi məsələsi qoyulub: buraxılmış nöqsanlar aradan qaldırılmalı, məsuliyyət hissi artırılmalı, təşəbbüskarlığa geniş yer verilməlidir.

* * *

2005-ci ildə Milax kənd tam orta məktəbi üçün 234 şagird yerlik yeni bina istifadəyə verilərkən artıq bu tədris ocağı xeyli uğurlara imza atmışdı. Artıq Nəbi müəllim də öz zəhmətinin qiymətini alıb. 2006-cı ildə Naxçıvan Muxtar Respublikasının, 2007-ci ildə Azərbaycan Respublikasının Əməkdar müəllimi fəxri adlarına layiq görülməsi onunla yanaşı, pedaqoji kollektivin də böyük sevincinə səbəb olub. Müəllimlər bir daha şahidi olublar ki, ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda müəllim nüfuzu yüksəlməkdə, onun əməyinə verilən dəyər artmaqdadır.

* * *

Nəbi müəllim ömrünə yazılan daha bir səhifəni xəyalında canlandırmağa başladı. Bu, məktəbin qazandığı uğurları özündə əks etdirən səhifədir: məktəbin 2 şagirdi 2008-2011-ci illərdə Azərbaycan Respublikası üzrə keçirilən fənn olimpiadasının qalibi olub (Riyaziyyat üzrə). Muxtar respublika üzrə belə şagirdlərin sayı 10-u ötüb. Şagirdlər rayondaxili bilik yarışlarında da fəallıq göstərirlər. 2008-ci ildən başlayaraq ali məktəblərə qəbul olunan məzunlardan hər il 2-3 nəfəri 500-dən yuxarı bal toplayır.

Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının statistik məlumatına əsasən, Milax kənd tam orta məktəbi 2008, 2011, 2012, 2013, 2014-cü illərdə respublikanın yaxşı məktəbləri sırasına düşüb. Ötənilki uğurlar da ürəkaçandır. Belə ki, 2015-ci ildə məktəbi bitirən 11 şagirddən 10 nəfəri tələbə adını qazanıb, 3 nəfər isə 500 baldan yuxarı nəticə göstərib. Cari dərs ilinin yekunlarının daha yüksək olacağı gözlənilir.

Bu uğurların təməlində nə dayanır? Bu sualla Nəbi Tağıyevə müraciət edirəm.

– İşə məsuliyyət və sabaha cavabdehlik hissi, tapşırılan vəzifənin qeyd-şərtsiz yerinə yetirilməsi, bağlandığın sənətə məhəbbət. Bu gün məktəbdə fəaliyyət göstərən bütün müəllimlər öz işlərini bu prinsiplər əsasında qurublar. Onlar unutmurlar ki, ölkəmizin gələcəyini yetişdirirlər. Məktəbdə yaradılan şərait barədə geniş danışmaq istəmirəm. Bir onu deyim ki, bu gün muxtar respublikadakı məktəbləri kənd və şəhər məktəblərinə ayırmaq olmaz.

Nəbi müəllim bir qədər dayanır, sonra sözünə davam edir:

– Müəllim təkcə savadlı məzun yetişdirməyə çalışmamalıdır. Vətənpərvər ruhlu gənclər formalaşdırmaq başlıca məsələdir. Dünən də belə olub, bu gün də, sabah da belə olmalıdır. Bunun üçün təlimin müxtəlif metodlarından, məktəbdənkənar və sinifdənxaric məşğələlərdən səmərəli istifadə etmək diqqətdə saxlanılmalıdır. Sevinirəm ki, məktəbimizin müəllimləri belə tədbirlərə həssaslıqla yanaşırlar.

Müsahibim stolun siyirməsindən bir neçə məktub çıxarıb mənə uzadır. Onlardan birini alıb baxıram. Vaxtilə Milax kənd tam orta məktəbini bitirmiş Adəm Quliyevdəndir. Adəm müəllim Bakıda yaşayır, kimya üzrə fəlsəfə doktorudur. O yazır:

– Hörmətli Nəbi müəllim, sizi və məktəbin kollektivini ürəkdən salamlayıram. Novruz bayramı münasibətilə hamınızı təbrik edirəm. Novruz bizim ən əziz bayramlarımızdan biridir. Sevinirəm ki, birlik, həmrəylik, torpağa bağlılıq, yurd sevgisi, vətənpərvərlik kimi hissləri, müsbət insani keyfiyyətləri bizə orta məktəbdə aşılamısınız.

*Başını qaldırıb Nəbi müəllimə baxıram. Üzündə təbəssüm görürəm. Bu təbəssüm neçə illər onun bir müəllim, bir məktəb direktoru, bir vətənpərvər ziyalı kimi çəkdiyi zəhmətin yaratdığı təbəssümdür...*

**Muxtar MƏMMƏDOV**

***Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində "Girdab" bədii filmi nümayiş etdirilib.***

# "Girdab" bədii filmi nümayiş etdirilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Mədəniyyət və Turizm nazirlikləri və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkil etdiyi tədbirdə əsas məqsəd gənclərin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunmasıdır.

Tədbirdə çıxış edən Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatının sədri Arzu Abdullayev bildirib ki, milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı ulu öndər Heydər Əliyevin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir. Bu siyasətə sadiq olan Azərbaycan gəncliyi hər zaman ictimai-siyasi sabitliyin tərəfdarı olub. Bununla yanaşı, Azərbaycanı sevməyən xarici qüvvələr bir çox hallarda gənclərimizi yanlış yollara çəkməyə cəhd edirlər. Amma həmin qüvvələr bu gün gəncliyimizin doğru yolda irəliləməsinə mane ola bilməyiblər. Çünki gənclərimiz aldadıcı vədlərə inanmır.

Qeyd olunub ki, kənar qüvvələrin gəncləri cəlb etmək məqsədilə verdiyi vədlər dövlətimiz tərəfindən çoxdan reallaşdırılıb. Bu gün gənclərimizin təhsili, karyerası, gələcək inkişafı, hətta əyləncəsi üçün istədiyi hər şeyi dövlətimiz təmin edir. Bütün bunlara baxmayaraq, biz yenə də bu mövzuya xüsusi həssaslıqla yanaşmalıyıq. Çünki bir çox üstünlükləri, təbii və mənəvi sərvətləri ilə dünyaya səs salan ölkəmiz və muxtar respublikamız daim xarici ölkələrin diqqət mərkəzindədir. Bizim daha bir sərvətimiz də var ki, o da gənclərimizdir. Ona görə də gənclərimiz daim ayıq-sayıq olmalı, kənar təsirlərə qarşı davamlı mübarizə aparmalıdırlar.

Sonra "Girdab" bədii filmi nümayiş etdirilib.

Türkiyə istehsalı olan film universitetə daxil olan bir türk gəncinin faciəvi həyatından bəhs edir. Həmin gənc təhsil aldığı şəhərdə ev axtararkən xarici kəşfiyyat orqanlarının tələsinə düşür. Onlar həmin gənc üçün kirayəlik ev tutur və guya kirayəni də özləri ödəyirlər. Bir müddətdən sonra onu dini təbliğatla ələ alaraq din pərdəsi altında özlərinin çirkin əməllərini yerinə yetirməyə sövq edirlər. Kənar təsirə düşən gənc sonda bir avtobusda özünü partladır və onlarla insanın həlak olmasına səbəbiyyət verir.

Filmdəki son səhnələr isə daha dəhşətlidir. Bir tərəfdə oğlunu itirən çarəsiz ana və atanın acı fəryadı, digər tərəfdə isə onu bu çirkin addıma cəlb edən terrorçuların qəhqəhələri reallıqları bütün çılpaqlığı ilə ortaya qoyur.

"Girdab" bədii filmini muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin 400-dən çox tələbəsi izləyib.

Qeyd edək ki, bu səpkidə filmlərin qarşıdakı aylarda da nümayiş etdirilməsi nəzərdə tutulub.

# Müsabiqənin birinci turu başa çatıb

***Naxçıvan Dövlət Filarmoniyasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş muxtar respublika uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin muxtar respublika müsabiqəsinin I turu başa çatıb.***

Məlumat üçün bildirək ki, aprelin 18-də start verilən müsabiqənin I turunda muxtar respublikanın bütün uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərindən müxtəlif ixtisaslar üzrə 156 şagird iştirak edib. Həmçinin bu məktəblərin xalq çalğı alətləri, nəfəs alətləri orkestrləri, skripkaçalanlar ansamblları və xor olmaqla, 32 kollektiv də müsabiqənin II turuna keçmək uğrunda mübarizə aparıb.

Müsabiqənin I turunda fərqlənənlər II tura keçmək hüququ qazanıblar. Naxçıvan Dövlət Filarmoniyasının zalında başlanan II turda seçiləcək qaliblər və fərqlənənlər diplom və fəxri fərmanlarla təltif olunacaqlar.

Qeyd edək ki, II tur aprel ayının sonunadək davam edəcəkdir. Fərqlənənlər may ayının əvvəlində müsabiqənin yekun konsertində iştirak etmək hüququ qazanacaqlar.

**Əli RZAYEV**

# NDU-nun komandası ümumrespublika olimpiadasının final mərhələsinə vəsiqə qazanıb

Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar, Təhsil nazirlikləri və Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə ali məktəb tələbələri arasında informatika üzrə ümumrespublika olimpiadası keçirilib. 17 may – Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Gününə həsr olunmuş olimpiadanın keçirilməsində məqsəd ali məktəb tələbələrinin informatika, proqramlaşdırma sahəsindəki biliklərinin və bu sahəyə olan marağının artırılması, habelə sahə üzrə seçilən tələbələrin beynəlxalq olimpiadalara cəlb edilməsidir.

Naxçıvan Dövlət Universitetinin komandası da ali məktəbin İnformatika kafedrasının dosenti Elşən Məmmədovun rəhbərliyi ilə olimpiadaya qatılıb.

Hər təhsil müəssisəsindən maksimum 4 komandanın iştirak edə biləcəyi olimpiadada Naxçıvan Dövlət Universitetini 1 komanda təmsil edib. İlkin mərhələdə respublikanın 22 ali təhsil müəssisəsindən 55 komandanın iştirakı ilə keçirilən olimpiadanın həmin mərhələsində geniş dünyagörüşə və yüksək intellektə malik olan Naxçıvan Dövlət Universitetinin komandası uğurla çıxış edərək final mərhələsinə vəsiqə qazanıb.

Qeyd edək ki, final mərhələsi aprel ayının 30-da AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunda keçiriləcək.

**Mina QASIMOVA**

**İtmişdir**

Ağamalıyev Musa Vilayət oğlunun adına olan SQ-0016184 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 329